DOI: https://doi.org/10.36719/2706-6185/26/26-30

**Samirə Mərdanlı**
Bakı Dövlət Universiteti
doktorant
mardanli.samira@gmail.com

# NİZAMİ GƏNCƏVİNİN YARADICILIĞINDA "SİRLƏR XƏZİNƏSİ" POEMASI

**Xülasə**

XII əsr Azərbaycan poeziyasının, həmçinin dünya ədəbiyyatının məşhur nümayəndəsi, zəngin yaradıcılığı ilə bütün bəşəriyyətin diqqətini özünə cəlb etmiş Nizami Gəncəvinin ədəbi əsərlərini təkcə böyük sənətkarlıqla qələmə alınmış bədii yaradıcılıq nümunəsi kimi deyil, həmçinin zəngin elmi, tarixi bilikləri özündə ehtiva edən qiymətli mənbələr olaraq nəzərdən keçirmək lazımdır. Nizaminin ilk iri həcmli əsəri olan "Sirlər xəzinəsi" poeması, Yaxın və Orta Şərq ədəbiyyatında didaktik poema janrının ən qiymətli nümunəsi kimi dahi şairin yaradıcılığında epik şeir sahəsində ilk qələm təcrübəsi olmuşdur. Nizami Gəncəvi yaradıcılığında elmin, incəsənətin bütün sahələrinə sözün qüdrəti ilə müraciət mövcuddur. Bu yaradıcılıq nümunələrinin əksəriyyət hissəsində hiss olunan əsas ideya məhz insan və onun əxlaqıdır. Didaktik poema olaraq qələmə aldığı "Sirlər xəzinəsi"ndə Nizami insanları ləyaqətli, ədalətli, insaflı, ağıllı, alicənab və vicdanlı görmək arzusunu biruzə verir. Şair dəyanətli və vicdanlı insanı şaha bərabər bilərək, insanın gördüyü bütün işlərdə ağılla hərəkət etməyi, ədaləti və haqqı hər şeydən tutmağının insana yalnız şərəf gətirəcəyini vurğulayır.

***Açar sözlər:*** *Nizami Gəncəvi, Sirlər xəzinəsi, leksika, didaktika, Xəmsə*

**Samira Mardanli**
Baku State University
PhD student
mardanli.samira@gmail.com

## The poem "Treasure of Secrets" by Nizami Ganjavi

**Abstract**

The literary works of Nizami Ganjavi, a famous representative of 12th-century Azerbaijani poetry and world literature, who attracted the attention of all mankind with his rich creativity, should be considered not only as an example of artistic creativity written with great skill, but also as valuable sources containing rich scientific and historical knowledge. Nizami's first large-scale work, the poem "Treasure of Secrets", as the most valuable example of the didactic poem genre in the literature of the Near and Middle East, was the first pen experience in the field of epic poetry in the work of the genius poet. In the works of Nizami Ganjavi, there is an appeal to all fields of science and art with the power of words. The main idea that can be felt in the majority of these creative examples is the man and his morality. In "Treasure of Secrets", which he wrote as a didactic poem, Nizami expresses his desire to see people as dignified, fair, fair, intelligent, noble and honest. The poet recognizes a steadfast and honest person as equal to a king, and emphasizes that a person should act wisely in all the things he does, and that justice and justice will bring him only honor.

***Keywords:*** *Nizami Ganjavi, Treasure of Secrets, lexicon, didactics, Khamsa*

## Giriş

XII əsr Azərbaycan poeziyasının, həmçinin dünya ədəbiyyatının məşhur nümayəndəsi, zəngin yaradıcılığı ilə bütün bəşəriyyətin diqqətini özünə cəlb etmiş Nizami Gəncəvinin ədəbi əsərlərini təkcə böyük sənətkarlıqla qələmə alınmış bədii yaradıcılıq nümunəsi kimi deyil, həmçinin zəngin elmi, tarixi bilikləri özündə ehtiva edən qiymətli mənbələr olaraq nəzərdən keçirmək lazımdır.

Nizaminin ilk iri həcmli əsəri olan "Sirlər xəzinəsi" poeması, Yaxın və Orta Şərq ədəbiyyatında didaktik poema janrının ən qiymətli nümunəsi kimi dahi şairin yaradıcılığında epik şeir sahəsində ilk qələm təcrübəsi olmuşdur. Nizami Gəncəvi yaradıcılığında elmin, incəsənətin bütün sahələrinə sözün qüdrəti ilə müraciət mövcuddur. Bu yaradıcılıq nümunələrinin əksəriyyət hissəsində hiss olunan əsas ideya məhz insan və onun əxlaqıdır. Nizami Gəncəvi insanı Allahın yaratdıqları arasında ən şərəflisi hesab edir, bu şərəfin səbəbini isə tanrının yaratdığı ən kamil varlıq olmasından irəli gəldiyini hesab edir (Gəncəvi, 2004: 8)

Nizaminin ilk iri həcmli əsəri "Sirlər xəzinəsi" poemasıdır. Yaxın və Orta Şərq, o cümlədən dünya ədəbiyyatında didaktik poema janrının ən qiymətli nümunələrindən biri kimi çıxış edən bu əsər dahi şairin yaradıcılığında epik şeir sahəsində ilk qələm təcrübəsi olub (Gəncəvi, 2004: 9).

"Sirlər xəzinəsi" adından da göründüyü kimi, Nizami Gəncəvinin yaşadığı dövrə qədər ədəbiyyatda geniş yayılmış didaktik əsərlərdəndir. Əsərin tərcüməsinin önsöz hissəsində "Sirlər xəzinəsi"nin şərhini vermiş Xəlil Yusifli qeyd edir ki, əsər mövzuca, məqsədcə müəyyən dərəcədə "Kəlilə və Dimnə", "Qutadqu bilik", "Hədiqətül-həqiqə", "Siyasətnamə", "Qabusnamə", "Cəhar məqalə" və başqa bu qəbildən olan əsərlərə yaxınlığı hiss edilən "Sirlər xəzinəsi" həm də onlardan fərqlənir. Dahi şair sanki özünəqədərki didaktik ədəbiyyatı yekunlaşdırıb ona daha yüksək humanist, demokratik istiqamət vermişdir (Gəncəvi, 2004: 7).

"Sirlər xəzinəsi"ni, sözün həqiqi mənasında, Nizaminin yaradıcılıq manifesti adlandırmaq olar. "Xəzinə" adını şair əsərə təsadüfən verməmişdir; "Sirlər xəzinəsi", doğrudan da, həyatın ayrı-ayrı sahələrini əhatə edən, cəmiyyətin müxtəlif təbəqələrinin rəngarəng surətlər silsiləsini yaradan, yeni fikirlər, ideya və qənaətlər ifadə edən bir əsərdir. Böyük şair didaktik poema janrının imkanlarından bacarıqla istifadə edib, oxucu ilə lirik monoloqlar şəklində söhbət edir, onu düşündürən, narahat edən problemlərə toxunur, bütün hallarda orta əsrlərin qatı zülməti içərisindən işığa, xeyrə səsləyir. Poema müxtəlif məsələlərə həsr edilmiş müqəddimə, 20 məqalət (söhbət) və bu məqalələri epik lövhələrlə əks etdirən 20 kiçik hekayədən ibarətdir. Kitabın tamamlanması haqqında kiçik bəhslə poemaya yekun vurulur. Əsərin başlanğıcında şair tovhid, minacat, nət adlı başlıqlarla Allahdan, peyğəmbərdən söhbət açır, islam dini ehkamları çərçivəsində onları tərifləməklə davam edir. Zamanın tələbinə uyğun hərəkət edən şair bu bəhslərin özündə belə ənənəvi dini ifadələrlə olsa da, çox ciddi ictimai problemlərə toxunur. Nizaminin sənətkar mövqeyi bu hadisələrə münasibətdə də açıq-aydın diqqəti cəlb edir; şair oxucunu həyəcanlandırır, şairin əhval-ruhiyyəsi oxucuya da ötürülür. Məlum olur ki, bütün bu təriflər, müraciətlər əsil mətləbə keçmək üçün bir bəhanədir. Zəmanəsindən son dərəcə narazı olan şair Allaha və peyğəmbərə də böyük ideallar naminə müraciət edir, qədim düzlük və doğruluq, təmizlik dövrünün, islamın ilk illərinin həyatını qaytarmağa çağırır (Gəncəvi, 2004: 9).

Mahir Cavadov özünün Nizami Gəncəvinin "Sirlər Xəzinəsi" əsərində xeyir və şər motivləri adlı məqaləsində onun yaradıcılığını yüksək qiymətləndirmişdir. Mükəmməl təhsil görmüş, bir sıra elmləri, o cümlədən islami dəyərləri dərindən mənimsəmiş, özünəqədərki dünya ədəbiyyatının ən yaxşı nümunələrindən təsirlənmiş Nizami Gəncəvi dərin biliklərinə və Tanrının ona bəxş etdiyi yüksək istedadına alın tərini qataraq epik poetik janrın ən parlaq nümayəndəsi səviyyəsinə qalxa bilmişdir. Məlumdur ki, Nizaminin "Xəmsə"sinə qədər də həm nəsrlə, həm nəzrlə, həm də nəsr və nəzm qarışıq epik əsərlər şifahi olaraq yayılmış və yaxud konkret müəlliflər tərəfindən qələmə alınmışdır. Folklorun ən parlaq janrlarını özündə ehtiva edən dastan və hekayətlər aşıqların, dərvişlərin ifasında söylənilmiş, xalqın gündəlik məişətlərində yaşayıb inkişaf etmiş, rəvayət və hədislər kamil, yüksək mənəviyyatlı insanın formalaşmasında mühüm tərbiyəvi əhəmiyyət daşımışdır (Cavadov, 284).

Şair poemanın giriş hissəsində şeir və sənət məsələlərinə də xüsusi diqqət yetirmiş, sözün meydana çıxması, insan həyatında rolu və s. haqqında söhbət açmışdır. Sözü xilqətin birinci gözəli adlandıran Nizami doğru göstərir ki, qələm hərəkətə başlayan zamandan dünyanın gözünü sözlə açıbdır. Söz insanın canı, bədən isə onun mənzilidir. Nizami Gəncəvi "Sirlər xəzinəsi"ndə sözə geniş mənada yanaşır, bədii sözün, yazının bəşəriyyətin inkişaf tarixindəki rolundan, onun müasir dövr yaradıcılığında əhəmiyyətindən danışıb, sözü insanın əsas vasitəsi hesab edir. Nizami şeir

haqqında danışarkən, şairin zəhmətinə yüksək qiymət verir, onu peyğəmbərlərə yaxın tutur. Şair və şeir qarşısında ciddi ictimai vəzifələr qoyan Nizaminin fikrincə, əslində şeir insanları tərbiyə etmək vasitəsidir (Məmmədova, 2020: 163).

"Sirlər xəzinəsi" əsərindəki hekayələrini şair onu çox narahat edən, düşündürən problemə həsr etmişdir. "İnsanın mərtəbəsi haqqında" birinci məqaləti, "Ədalət və insafı gözləmək haqqında" ikinci məqaləti, "Padşahın rəiyyətə qayğı göstərməsi haqqında" üçüncü məqaləti, hekayələrdən "Özündən naümid olub bağışlanan padşahın hekayəsi", "Nuşirəvan və bayquşların söhbəti", "Sultan Səncər və qarı", "Zalım padşahla zahidin dastanı", "Bir şahzadənin hekayəsi"ndə hamını düşündürən aktual məsələ - hökmdarın xalqla rəftarı mövzusu diqqəti cəlb edir. Dahi şair dövrünün zalım hökmdarlarını gah axirətlə qorxudur, gah zülmün bu dünyada onlara zərər, ziyan yetirəcəyini xatırladır, onları xalqın qəzəbi ilə hədələyir (Gəncəvi, 2004: 18).

"Zalım padşahla zahidin dastanı" və "Sultan Səncər və qarı" hekayələri məzmunca bir-birinə çox yaxındır. Əgər "Sultan Səncər və qarı"da şah məmurlarının cinayətləri və şahın bu cinayətlərə laqeydliyi əks olunmuşsa, "Zalım padşahla zahidin dastanı"nda feodal gerçəkliyinin başqa bir mənfi cəhəti açıq şəkildə göstərilir. Sultan Səncər xalqın şikayətlərinə əhəmiyyət vermir, cinayətkarları cəzalandırmır, onlara şərait yaradırsa, bu hekayədə təsvir edilən zalım padşah daha qəddardır. O, hər tərəfi casuslarla doldurmuşdur, haqq deyən dilləri kəsdirir, şahın zülmündən şikayət eləyənləri məhv etdirir. Onun ölkəsində şahın əleyhinə danışmaq ən qorxulu cinayət sayılır. Bu isə Nizami dövrünün mənzərəsidir. Ona görə də Y.E.Bertels bu hekayəni "Sirlər xəzinəsi"nin açarı və poemanın ən yaxşı hekayəsi adlandırır. Doğrudan da, Nizami "Sirlər xəzinəsi" ilə zəmanəsinin eybəcərliklərinə güzgü tutmuş, hər şeyi olduğu kimi göstərən bir poeziya aynası yaratmışdır (Gəncəvi, 2004: 16).

“Sirlər xəzinəsi”nin şərhini vermiş Xəlil Yusifli qeyd edir ki, Nizami poeziyasında ictimai siniflər arasındakı kəskin fərq, hakim təbəqələrlə xalq arasında mövcud fərqlər, onların qarşı-qarşıya qoyulması, eyni zamanda bu mövzuda xalqın böyük gücünə inam, hökmdar və xalq probleminin demokratik şəkildə həlli yolunun irəli sürülməsi Yaxın və Orta Şərq İntibahının ən böyük nailiyyətlərindən kimi qiymətləndirilməlidir. Nizami bununla da kifayətlənmir, yeniliyin köhnəliklə mübarizəsi, köhnəliyə qarşı amansız döyüşkən mövqe tutması fikrini irəli sürür. O, əsrlərin köhnə və geridəqalmış düşüncə tərzindən gələcəyə baxaraq, yeni ideyaların qələbəsi üçün yollar göstərir (Nəsirov, 2021: 21).

Əlbəttə Nizami yaradıcılığının ən böyük əhəmiyyəti də məhz bunda, həyatı ziddiyyətli şəkildə göstərməsindədir. Şair "Sirlər xəzinəsi"ndə dövrün geniş bədii mənzərəsini yaratmış, ən müxtəlif məsələlərdən danışmış, müxtəlif təbəqələrin həyatından söhbət açmışdır. Əfsanəvi, tarixi şəxsiyyətlərdən tutmuş müasir dövrün adi adamlarına qədər hamı burada əks olunmuşdur (Gəncəvi, 2004: 19).

Əməyə və əməksevər insana dərin məhəbbət və hörmət Nizami yaradıcılığını səciyyələndirən əsas xüsusiyyətlərdəndir. Şair başqa yaradıcılıq nümunələrində olduğu kimi "Sirlər xəzinəsi"ndə də bu mövzuya xüsusi diqqət yetirir, əməyi insanın yaraşığı sayır. Nizami belə hesab edir ki, hər bir adam işləməli, öz zəhməti ilə halal yolla həyatda qalmalıdır. İstər məqalətlərdə, istərsə də ayrı-ayrı hekayələrdə onun insanı əməyə, zəhmətə çağıran fikirlərini görürük:

Ey əxi, nəfs itdir, onu çək dara,
Ruzi üçün açma əl alçaqlara.
Dadına paxıl rizqini, ye torpağı,
Torpaq olub, olma rəzil tapdağı.
Qoy əlinə, qəlbinə batsın tikan,
İşlə, çalış durma bekar bircə an.

"Sirlər xəzinəsi" zəngin məzmunlu, yüksək sənətkarlıqla yazılmış bir əsərdir. Azərbaycan İntibahının qiymətli bir xəzinəsi kimi bu əsərin əhəmiyyəti ondadır ki, insanlığın işıqlı sabahına, sadə xalqa məhəbbətlə doludur (Yusifoğlu, 2021: 20).

Nizami Gəncəvi yaradıcılığı istər öz dövrü, istərsə də sonrakı dövrlərdə müxtəlif şair və ədiblərin marağına səbəb olmuş, çoxsaylı şərhlərin meydana gəlməsinə səbəb olmuşdur. Z. Allahverdiyeva qələmə aldığı Nizami Gəncəvinin "Sirlər Xəzinəsi" əsərinə yazılan şərhlər haqqında məqaləsində qeyd edir ki, "Məxzənül-əsrar" ("Sirlər xəzinəsi") məsnəvisinin şərhçilik tarixi orta əsrlərdən başlayır və bu şərhçilər arasında Əbdül Həmid Qazi, Məhəmməd Qivami əl-Bəlxi, Mövlana Mustafa Şəmi Çələbi kimi öz dövrlərinin görkəmli dilçi-alimi, Şərq fəlsəfəsi və poetikasını mükəmməl bilən şəxsiyyətlər vardır. "Məxzənül-əsrar"a türkcə yazılmış ilk şərh kitabı XVI əsrdə yaşamış türk müəllifi Mövlana Mustafa Şəmi Çələbi tərəfindən qələmə alınmışdır. Mövlana Mustafa Şəmi Çələbi öz dövrünün görkəmli poeziya şərhçilərindən hesab olunur. XVIII əsrin əvvəllərində Qazi İbrahim Tatainin hazırladığı şərh, daha sonra XIX əsrdə Zühur əl-Həsən Banhurinin 1881-ci ildə yazdığı "Zühur əl-əsrar" ("Sirlərin zühuru") adlı şərhini göstərmək olar. XIX əsrdə, 1844-cü ildə Londonda Oksford Universitetinin görkəmli şərqşünas alimi Nataniel Blend tərəfindən Nizami Gəncəvinin "Məxzənül-əsrar" əsərinin farsca mətninin nəşri Avropada bu sahədə görülmüş ilk ciddi iş olaraq çox qiymətlidir (Allahverdiyeva, 2019: 17).

XX əsrdə Nizami Gəncəvinin "Sirlər xəzinəsi" əsərinə İranda, eləcə də Azərbaycan və Rusiyada şərhlər yazılmışdır. Şairin lirika və poemalarının nəşri, tərcümə və tədqiqi zamanı izahlar və açıqlamalar vermiş müəlliflər içərisində H.Araslı, Y.E.Bertels, M.Əlizadə, V.Dəstgirdi, S.Nəfisi, Y.Pipka, Q.Darab, R.Əliyev, Q.Əliyev, Z.Quluzadə, V.Aslanov, H.Məmmədzadə, A.Rüstəmova, X.Yusifli, Ç.Sadıqoğlu, N.Araslı, T.Kərimli və onlarla başqa bu sahədə əməyi olan müəllifləri mütləq qed etmək lazımdır.

Son dövrlərdə Nizami Gəncəvinin yaradıcılığına müraciət edərək onun tədqiqinə geniş yer vermiş alimlər arasında "Sirlər xəzinəsi" əsərinə 10 cilddən ibarət şərh yazmış Azərbaycan alimi Siracəddin Hacının adını qeyd etmək lazımdır.

Nizami Gəncəvinin "Məxzənül-əsrar" məsnəvisini nəşr və tədqiq edən alimlərin hamısı əsərin ideya və üslubunda islam dininə bağlı elementləri xüsusi qeyd etmişlər, çünki əsər özü bunu tələb edir. Məsələn, Blend 1844-cü ildə Londonda "Məxzənül-əsrar"ı nəşr edərkən, kitaba məhz Nizaminin özünün beytlərini epiqraf seçmişdir (Allahverdiyeva, 2019: 20).

## Nəticə

Azərbaycanın görkəmli şairi Nizami Gəncəvi dövrünün hərtərəfli biliyə malik, dahi şəxsiyyətlərindən biri olmuşdur. Onun misilsiz əsərlərində xalqın arzuları, sosial ədalətsizlik göstərilməklə, gözəl bədii təfəkkür nümunəsi ortaya çıxmış, şairin etik fəlsəfi bilikləri geniş şəkildə təzahür etmişdir. Şairin yaradıcılığında istifadə olunmuş atalar sözləri və hikmətli sözlər başlanğıcını folklordan götürsə də Nizami kimi müdrik bir şəxsiyyətin qələmi ilə yeni və daha geniş məna və məzmun ifadə etmişdir. Eləcə də bir çox şair, alim və yaradıcı şəxsiyyətlərə məxsus fikir və ifadələr onun yaradıcılığı ilə dah geniş auditoriyaya çatdırılmışdır. Nizaminin ölümsüz əsərləri sadəcə Azərbaycan ədəbiyyatına deyil, eyni zamanda dünya ədəbiyyatına böyük töhfə vermişdir (Hüseynova, 2021: 6).

Əlbəttə yaradıcılığı ilə ümumdünya mədəniyyətinə verdiyi misilsiz töhfələrlə şair şərq və dünya ədəbiyyatının ən yüksək zirvəsini fəth etmişdir. Onun "Xəmsə"si demək olar ki, dünyanın bütün canlı dillərinə tərcümə olunmuş nadir əsərlərdəndir ki, çoxsaylı şairin də nəzirələrinin mənbəyi kimi çıxış edir. Şairin öz nuru, ziyası ilə yaratdığı geniş kütləyə təbir edən əsərlərini nəzərə alaraq onu yalnız günəşlə müqayisə oluna biləcək bir şəxsiyyət kimi qiymətləndirmək lazımdır (Məmmədova, 2020: 161).

Ə. Məmmədova öz məqaləsində Səid Nəfisinin fikirlərinə istinad edərək şair haqda belə yazır: "O əsərlərini fars dilində yazsa da, bəzən farsdilli oxucuya onun yazdıqlarının incəliklərinin anlaşılmaz və çətin gəldiyi məqamlar olur. Nizami Gəncəvi bugün bütün dünyaya məlum əsərlərinin hamısını yaşadığı dövrün tələbinə uyğun olaraq farsca qələmə almışdır. Şairin farscası nə qədər rəvan və kamil olsa da, bu bir farsın farscası məsələn Firdovsinin farscası deyil."

Nizami və onun müasirləri Azərbaycan və Aran üslubu nümayəndələri folklor və şifahi xalq ədəbiyyatından çox bəhrələnmiş, adi xalq danışığını, ifadə və deyimləri əsərlərində böyük bir

bacarıq və məharətlə istifadə etmişdir. əsrlər keçməsinə baxmayaraq, hələ də həmin ifadə və deyimlər bugün də azərbaycanlılar arasında canlı dil ifadəsi kimi istifadə edilir və illərin buna bir təsiri olmamışdır (Bamdadi, 2004: 5).

Bəhruz Bamdadi Nizami yaradıcılığını araşdırarkən belə qənaətə gəlir: Azərbaycan şairləri, o cümlədən Nizami Gəncəvinin əsərlərini oxuyub, lazımi şəkildə başa düşmək üçün Azərbaycan (türk) dilinin incəliklərini bilmək lazımdır. Qeyd etdiyimiz kimi, Nizami əsərlərindəki bəzi ifadə və tərkiblərin türk olmayan oxucuya qarışıq gəlməsinin səbəbi isə məhz onun əsərlərindəki incə məqamları bilməmələridir (Bamdadi, 2004: 6).

Öz məqaləsində B.Bamdadinin bu fikrinə istinad edən Ə.Məmmədova məhz Nizaminin bir türk olmasından irəli gəldiyini bəyan edir (Məmmədova, 2020: 163).

Hər iki müəllifin fikirlərinə istinad edərək deyə bilərik ki, həqiqətən də dahi şair Nizami Gəncəvi türk dilinin daşıyıcısı kimi bir çox hallarda türk, azərbaycan dillərinə məxsus idiom və ifadələri, tərkibləri, atalar sözlərini tərcümə edərək, çox incə şəkildə nəzmə çəkmişdir.

## Ədəbiyyat

1. Gəncəvi, N. (2004). Sirlər xəzinəsi. Bakı: Lider Nəşriyyat, 263 s.
2. Cavadov, M. Nizami Gəncəvinin “Sirlər Xəzinəsi” əsərində xeyir və şər motivləri, s.282-290.
3. Məmmədova, Ə. (2020). Nizami əsərlərində atalar sözləri və məsəllər (“Sirlər xəzinəsi” üzrə). Bakı Universiteti xəbərləri. №3, s.160-168.
4. Nəsirov, E. (2021). “Sirlər xəzinəsi”: İnsan və onun əxlaqı. Türküstan qəzeti, 21 s.
5. Yusifoğlu, R. (2021). Nizaminin sehrli sənət güzgüsü və ya “Sirlər xəzinəsi”nin xəzinədarı. 525-ci qəzet, 20 s.
6. Allahverdiyeva, Z. (2019). Nizami Gəncəvinin “Sirlər Xəzinəsi” əsərinə yazılan şərhlər haqqında. AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Azərbaycan ədəbiyyatşünaslığı, № 2, s.16-21.
7. Hüseynova, E. (2021). Nizami Gəncəvi yaradıcılığında təbiət leksikası. Bakı: Respublika qəzeti, 6 s.
8. Bamdadi, B. (2004). Nəqş-e folklor-e ədəbiyyat-e şefahi-ye Azərbaycan dər asar-e Nezami-ye Gəncəvi. Təbriz. Məcmue-ye məqalət-e əvvəlin neşəst, s.2-15.

Göndərilib: 03.05.2023 Qəbul edilib: 11.07.2023